# Hərbi polisin yaranmasının 31-ci ildönümü qeyd edilib

Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi polisin yaranmasının 31-ci ildönümü münasibətilə Hərbi Polis İdarəsini ziyarət edib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin idarənin həyətində ucaldılmış büstü önünə gül dəstəsi düzülərək xatirəsinə ehtiram nümayiş etdirilib.

Nazirliyin rəhbər heyəti fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi qapalı və açıq idman zalları, eləcə də futbol meydançasına baxış keçirib. Azərbaycan Ordusunda keçirilən müxtəlif idman yarışları və müsabiqələrdə fərqlənən hərbi qulluqçularla görüşüb. Nazirliyin rəhbər heyətinə hərbi qulluqçuların əldə etdikləri nailiyyətlər barədə ətraflı məlumat verilib.

Daha sonra Hərbi Polis İdarəsinin avtomobil parkında hərbi avtomobillərə baxış keçirilib, nəqliyyat vasitələrinin texniki göstəricilərinin yüksək səviyyədə saxlanılması, həmçinin təlimata uyğun istifadə və istismarına xüsusi diqqət yetirilməsi ilə bağlı müvafiq tövsiyələr verilib.



Hərbi Polis İdarəsinin rəisi polkovnik-leytenant Elgün Əliyev hərbi polisin fəaliyyəti və qoşun xidmətinin təşkili barədə məruzə etdikdən sonra ölkə ərazisindəki müxtəlif komendant postlarının fəaliyyəti videobağlantı vasitəsilə izlənilib.

Sonra nazirliyin rəhbər heyəti hərbi qulluqçularla görüşüb, onların qayğıları ilə maraqlanıb, şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar aidiyyəti üzrə çatdırılıb. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində başladığı işlərin Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu gün də uğurla davam etdirildiyi bildirilib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra ordumuzun döyüş təcrübəsinin dünyanın bir çox qabaqcıl ölkələrinin orduları tərəfindən öyrənildiyi şəxsi heyətin diqqətinə çatdırılıb.

Bildirilib ki, məhz Müzəffər Ali Baş Komandanın möhkəm iradəsi nəticəsində azad edilmiş ərazilərdə Azərbaycan Ordusunun fəaliyyəti bu gün də uğurla davam etdirilir.

Qeyd olunub ki, Vətən müharibəsində və sonrakı dövrdə fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilən hərbi polisin hərbi qulluqçularından 7 nəfəri Birinci Qarabağ müharibəsində, 3 nəfəri İkinci Qarabağ müharibəsində şəhid olub, bir çoxu isə müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan Ordusunun digər hərbi qulluqçuları ilə yanaşı, hərbi polisin şəxsi heyətinin də qarşıya qoyulan bütün tapşırıqları layiqincə yerinə yetirdiyi vurğulanıb.

Hərbi polisin digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə fəaliyyətinin Azərbaycan Ordusunda nizam-intizamın qorunub saxlanılmasına müsbət töhfə verdiyi qeyd edilib.

Hərbi Polisin şəxsi heyəti yaradılan şəraitə görə minnətdarlığını bildirib, bu tarixi məqamda Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən qürur duyduqlarını vurğulayıb.

Tədbirdə hərbi polisin yaranmasının 31-ci ildönümü münasibətilə müdafiə nazirinin əmri oxunub və xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.

Sonda Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin hərbi polisin tarixi və xidməti fəaliyyətini əks etdirən "Mənim hərbi polisim" adlı kitabının ilk nüsxəsi Müdafiə Nazirliyinin rəhbərliyinə təqdim olunub və birgə xatirə fotosu çəkdirilib.

Azərbaycan.- 2023.- 4 may.- S.12.